# XIV Qəbələ Beynəlxalq Musiqi Festivalı

İyulun 24-də XIV Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub. Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən festivalın açılış konsertində dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illik yubileyinə həsr olunmuş proqram təqdim olunub. Mərasimdə çıxış edən Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli ənənəvi olaraq təşkil edilən Qəbələ Beynəlxalq Musiqi Festivalının mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu bildirmiş, 2009-cu ildən keçirilən festivalın dünya musiqisinin müxtəlif simalarını bir məkanda toplayaraq, beynəlxalq mədəni dialoqun önəmli ünvanına çevrildiyini qeyd etmişdir. Musiqi tariximizin inciləri ilə dolu axşamda xalq artisti Ağaverdi Paşayevin bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin və Fikrət Əmirov adına Əməkdar Kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının xor qrupunun ifasında tanınmış bəstəkarlar - Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Vasif Adıgözəlov, Hacı Xanməmmədov, Ramiz Mirişli, Polad Bülbüloğlu, Emin Sabitoğlu, Süleyman Ələsgərov, Fikrət Əmirov, Fərhad Bədəlbəyli, Müslüm Maqomayevin musiqiləri, eləcə də xalq mahnıları dinlənilib. İyulun 29-dək davam edən festivalda Qəbələ müxtəlif ölkələrdən gələn tanınmış ifaçıların, gənc istedadların, musiqi kollektivlərinin bir araya toplandığı musiqi səhnəsinə çevrilmişdir. Azərbaycanla yanaşı Latın Amerikası, Litva, Gürcüstandan dünyaşöhrətli musiqiçilər, dirijorlar və musiqi kollektivləri öz rəngarəng çıxışları ilə məharətlərini nümayiş etdirmişlər.










* * *

**Qəbələ festivalında Üzeyir Hacıbəylinin 140 illiyinə həsr edilmiş konsert təqdim olunub**





Uğurla davam edən XIV Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində iyulun 27-də Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə dahi Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş konsert proqramı təqdim edilib. Kamera musiqisi axşamında Xalq artistləri Ülviyyə Hacıbəyova (piano) və Gülnaz İsmayılova (soprano) tamaşaçılar qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər. Konsertdən əvvəl Xalq artisti Ülviyyə Hacıbəyova çıxış edərək Üzeyir Hacıbəylinin yaradıcılığı və konsertdə ifa olunacaq əsərlər barədə qısa məlumat verib. Xalq artisti deyib: "Mən həmişə Üzeyir Hacıbəylini "dahilərin dahisi" adlandırmışam. Xalqımız da onu belə qavrayıb və qəbul edib. Çünki Üzeyir Hacıbəyli yalnız bir sahədə deyil, mədəniyyətimizi əhatə edən bir çox sahədə dahi statusunu qazanıb. O, həm böyük dramaturq, publisist, həm də musiqişünas, bəstəkar, böyük vətəndaş olub".





Konsertdə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası, "Koroğlu" operasından Nigarın ariyası, "Uvertüra", Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletindən vals, Soltan Hacıbəyovun "Nəğmə", Qara Qarayevin iki prelüdü, Arif Məlikovun "Güllər", Fikrət Əmirovun "Sevil" operasından Sevilin ariyası, Tofiq Quliyevin "Sevincim Bakı", Niyazi Hacıbəyovun "Rast" simfonik muğamından fraqmentlər, "Arzu", Fərhad Bədəlbəylinin "Ave Maria" və digər bəstəkarların əsərləri səsləndirilib. Konsert proqramı tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

* * *

**XIV Qəbələ Beynəlxalq Musiqi Festivalı başa çatıb**

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş XIV Qəbələ Beynəlxalq Musiqi Festivalı başa çatıb. Gözəl ənənəyə çevrilən festival bu dəfə də möhtəşəmliyi ilə musiqisevərlərin diqqətini Qəbələyə cəlb edə bilib. 29 iyul tarixində keçirilən XIV Qəbələ Beynəlxalq Musiqi Festivalının bağlanış mərasimi və yekun konsertində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin iştirakı ilə tamaşaçılara "Viva opera" konsert proqramı görkəmli musiqi xadimləri Vasif Adıgözəlovun 90, Rauf Atakişiyevin 100 illik yubileylərinə həsr olunub. Xalq artistləri Yalçın Adıgözəlovun və Fuad İbrahimovun dirijorluğu ilə keçən konsertdə solistlər Murad Adıgözəlzadə (piano), Yusif Eyvazov (tenor),eləcə də Aytac Şıxəlizadə (mezzo soprano) və Əvəz Abdullanın (bariton) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**Fotolar S. Umuyevindir.**